# Biologiyanın anlayışlarının tədrisinin ədəbiyyatda problem kimi qoyulması

**Kazım Aytən**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** ayten.kazim95@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos.G.N. Hacıyeva,
ped.ü.f.d., dos. H.M. Hacıyeva

**Açar sözlər:** biologiya, problem, metodlar, şagirdlər, anlayışlar
**Ключевые слова:** биология, проблема, методы, ученики, концепции
**Key words:** biology, problem, methods, pupils, concepts

XX əsrin sonunda Azərbaycan Respublikası müstəqilliyə nail olmuş və demokratik inkişaf mərhələsinə qədəm qoymuşdur. İctimai həyatın bütün mərhələlərində, həmçinin təhsil sahəsində yeni istiqamətli inkişafa başlandı. Fənnyönlü təhsil sistemindən nəticəyönlü, şəxsiyyətyönlü təhsilə keçilməsi, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insanın yetişdirilməsi günün, zamanın ən aktual probleminə çevrildi.

Müasir dövrdə respublikamızda aparılan təhsil islahatları respublikamızda təhsilin inkişafı üçün geniş perspektivlərə yol açmışdır. Azərbaycan Respublikasının təhsil sistemi milli zəmin üzərində qurulmaqla yanaşı, həm də Avropaya, dünya təhsil məkanına inteqrasiya etmişdir. İnkişaf etmiş dünya ölkələrinin təhsil sahəsində nailiyyətləri, əldə etdikləri təcrübə öyrənilir, həmin ölkələrlə respublikamızın təhsil sistemi arasında qarşılıqlı əməkdaşlıq getdikcə genişlənir. Məhz bu inkişaf fənlərin tədrisi metodikasında da özünü göstərir. Elə bu baxımdan biologiyanın tədrisi metodikasında da dəyişiklik nəzərə çarpmaqdadır.

Biologiyanın tədrisi prosesində onun anlayışlarının tədrisi ilə əlaqədar olaraq bəzi məsələlər diqqəti cəlb edir. Belə ki, anlayışların tədrisində müəllim nəqli (izahetmə metodu) üsuldan istifadə etməklə yanaşı, həm də əyanilik prinsipindən də istifadə edir. Belə ki, biologiyanın anlayışlarının lazımi səviyyədə tədris olunmaması özü ilə birlikdə bir sıra problemlər yarada bilər. Belə ki, biologiya fənninə qarşı şagirdlərdə antisimpatiya yarana bilir.

Biologiyanın anlayışlarının tədrisinin bioloji ədəbiyyatlarda problem kimi qoyulması diqqəti xüsusilə cəlb edən bir problemdir. Belə ki, müəllif G.Hacıyevanın "Biologiyanın tədrisi metodikasından mühazirələr" adlı kitabında məhz bioloji anlayışların tədrisinin problem kimi qoyulması diqqəti cəlb edir.

Müəllif bu zaman bildirmişdir ki, şagirdlərdə ilk növbədə fənnin özünə maraq oyatmaq lazımdır. Daha sonra yaranmış olan marağın, motivasiyanın özü şagirdləri öyrənməyə təhrik edəcəkdir. Bu zaman isə müəllimin düzgün metod, üsul və prinsiplərdən istifadə edərək bioloji anlayışları tədris etsə, artıq şagird dərsi asan qavradığı üçün ona çətin görünən fənn və ya mövzu asanlıqla həllini tapmış olacaq. Bu baxımdan da müəllim həm fənnini sevdirmiş olacaq, həm də şagirdlərin hərtərəfli inkişafına nail olmuş olacaq [2., 45].

Biologiyanın anlayışlarının tədrisində digər bir məsələ dərs prosesində anlayışların izah olunması zamanı innovasiyaların tətbiqidir. İnnovasiya – yüksək məhsuldarlığa malik yeniliyin tətbiqi və onun fəaliyyət zamanı son nəticəsidir. İnnovasiyanın tətbiqi təhsilin

modernləşdirilməsi probleminə yeni yanaşmanı irəli sürmüşdür. Təhsilin modernləşdirilməsinə təsir göstərən amillər sırasında həm qloballaşmanı, həm innovasiyanı, həm müasir dövrdə diqqəti cəlb edən müəllim–şagird münasibətlərini misal göstərmək olar.

Bioloji anlayışlar, dünyagörüşü, təfəkkür, praktik bilik və bacarıqlar əasən dərsdə inkişaf etdirilir. Çünki mövzu və bəhslərin tədrisi müəyyən ardıcıllıq və sistemlə dərs prosesində həyata keçirilir.

Biologiya dərsləri mövcud təlim metodları (şifahi şərh, əyani və praktik metodlar) əsasında keçilir. Müəllim bitki və heyvanları nümayiş etdirir, müxtəlif orqanizmlərin xarici və daxili quruluşunu praktik olaraq öyrədir. Anlaşılmayan, aydın olmayan anlayışları isə tədris edərkən bir sıra məqamlara xüsusilə diqqət yetirmək lazımdır.

Bioloji ədəbiyyatlarda biologiyanın anlayışlarının tədrisində əsas yaranacaq problemlər şərh olunmuşdur. Lakin hər bir müəllim onu tədris edərkən yarana biləcək problemləri aradan qaldıra bilər. Çünki biologiya təcrübi bir elmdir. Əlbəttə ki, belə bir fənnin tədrisi zamanı müəyyən problemlər (dərsin ətraflı izahı zamanı vaxtın çatmaması və bioloji anlayışın tam şəkildə şərh olunmaması və s.)

Hazırda məktəb və universitetlərdə əvvəllər mövcud olan ənənəvi təlim formasına üstünlük verilmədiyindən fəal və ya problemli təlim ilə fənnin tədrisini həyata keçirmək müəllimlərdən yüksək səviyyədə bilik və bacarıq tələb edir.

Biologiya anlayışlarının tədrisində yaranan problemin (və ya problemlərin) aradan qaldırılması üçün həyata keçirilən tədbirlər aşağıdakılardan ibarətdir:

— Biologiya elmini bilməklə nələrə nail olmaqla bağlı şagirdlərlə daim disputların keçirilməsi;

— Biologiya elminin tərbiyəedici və inkişafetdirici funksiyasını şagirdlərə izah etmək və aşılamaq;

— Biologiyanın anlayışlarını mənimsəməklə elmi dərinliklərinə varmağın asan ola biləcəyini izah etmək;

— Biologiya anlayışlarının tədrisi zamanı eksperiment metodunu tez-tez tətbiq etmək;

— Biologiya anlayışlarının tədrisində əzbərçiliyə yol verməmək;

— Modullaşdırılmış proqram vasitəsilə tədrisin keyfiyyətini artırmaq.

Biologiyadan yeni məzmunun nəticələr (məzmun standartları) formasında verilməsi kurikulum sənədinin mühüm xarakterindən irəli gəlir. Müəllimlərə nəticələrin bir standart tələb kimi verilməsi onlara fəaliyyətində sərbəst olmağa, müvafiq təlim strategiyaları seçməyə, yaxud öz imkan və şəraitlərinə uyğun təlim strategiyaları hazırlamağa imkan yaradır. Yaxud müasir dərsliklərin, digər resursların hazırlanmasını istiqamətləndirir.

Biologiya fənni üzrə yeni məzmunda insan, onun sağlamlığı, insanın sosial mahiyyəti, insan və təbiət münasibətləri, insanın psixoloji xüsusiyyətlərinə aid həyati əhəmiyyəti olan ən zəruri bilik və bacarıqlar əhatə olunur.

Biologiya təbiətə aid elm sahələri ilə sıx əlaqədardır. Fizikanın, kimyanın, riyaziyyatın, coğrafiyanın (fiziki coğrafiya) bir sıra qanunları və ekoloji problemlər haqqında təsəvvürü olmayan bir insan həyatı lazımi səviyyədə dərk edə bilmədiyindən, biologiyanın tədrisi prosesində həmin fənlərə istinad edir. Yalnız bu halda dünyanın tam bir vahid kimi qavranılması üçün zəmin yaranmış olur. Biologiya fənninin tədrisi sayəsində insanın bioloji və sosial mahiyyətini başa düşən şagird özünün, yaxınlarının sağlamlığının qorunmasına və sağlam həyat tərzinə hazırlanır.

Bütün bunlar şagirdlərin intellektual inkişafı, vətənini sevən yetkin şəxsiyyət kimi formalaşması baxımından əhəmiyyət daşıyır.

**Məqalənin aktuallığı.** Biologiya fənninin tədrisində onun anlayışlarının tədrisi ilə əlaqədar olaraq bəzi məsələlər həmişə diqqəti cəlb etmiş və bu zaman müəllim nəqli üsulla yanaşı, həm də əyanilik prinsipindən istifadə edir. Məqalədə bu kimi məsələlərin tədqiqi də onun aktuallığını təsdiqləyir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə biologiya dərsi zamanı istifadə olunan təlim metodlarının geniş şərhi verilir və onların tədris prosesinə müsbət mənada əhəmiyyətli təsiri göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Hacıyeva H. Biologiyanın tədrisi metodikasının inkişaf tarixi və elmi əsasları. Bakı, 2010.
2. Hacıyeva G. Biologiyanın tədrisi metodikasından mühazirələr. Bakı: Mütərcim, 2016.
3. Ramazanov H. Biologiyanın tədrisi ilə əlaqədar bəzi təcrübələr. Bakı: Maarif, 1971.
4. Salahov Ə. Biologiyanın tədrisi üsulu. Bakı: APİ, 1970.

**К. Айтен**

## Обучение концепции биологии по литературе как проблема

## Резюме

Как мы знаем, классы биологии основаны на принципе репрезентативности. В методике преподавания учитель начинает учить предмет и его концепции, принимая во внимание этот аспект. Преподавание биологии в биологической литературе является проблемой.

Эта статья полностью исследована путем изучения концепций биологии как проблемы литературы. С этой точки зрения было установлено, что вопрос о биологических концепциях как проблеме литературы является жизненно важным.

**K. Ayten**

## The training of the biological conceptions to be as problem on the literature

## Summary

As we know, biology classes are based on the principle of representativeness. In the teaching methodology, the teacher begins to teach the subject and its concepts, taking into account this aspect. The teaching of biology in biological literature is a problem.

This article is thoroughly investigated by the teaching of the concepts of biology as a problem in literature. From this point of view it has been established that the issue of biological concepts as a problem in literature is a matter of vital importance.